# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BƏZİ YERLİ TEXNİKİ ÜZÜM SORTLARININ POPULYASİYALARININ BƏRPASI BARƏDƏ

**Xuraman Abasova, Cavid Ağakişiyev, Rauf Əsədullayev**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, xuraman.abasova@mail.ru*

Üzüm sortlarının təsərrüfat-iqtisadi əhəmiyyətinin qiymətləndirilməsində morfoloji tədqiqatlar aktuallığı ilə seçilir. Buna görə də Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun Ampeloqrafik kolleksiya bağında (Abşeron rayonu) əkilib-becərilən bəzi yerli texniki üzüm sortlarının biomorfoloji xüsusiyyətlərinin öyrənilməsi istiqamətində tədqiqatlar aparılmışdır.

Tədqiqat materialını *Vitis* L. cinsinin mədəni üzüm (*Vitis vinifera* L.) növünün şərq ekoloji-coğrafi qrupunun texniki sortlar yarımqrupuna (*subconvar caspica* Neqr.) aid olan Azərbaycanın qədim sortları - Bayanşirə və Mədrəsə təşkil etmişlər.

Müəyyən edilmişdir ki, hər ilin meteoroloji şəraitindən, aqrotexniki tədbirlərin səviyyəsindən, tənəklərin inkişaf xüsusiyyətlərindən və s. amillərdən asılı olaraq, tədqiq edilən sortların eyni tənəklərində belə salxımların orta kütləsi dəyişilir. Belə ki, salxımların orta kütləsi Bayanşirədə 196-210, Mədrəsədə 126-148 qram arasında dəyişmişdir.

Eyni zamanda aydınlaşdırılmışdır ki, tənəklərin orta məhsuldarlığına görə də sortlar bir-birindən kifayət qədər seçilir. Tənəyin orta məhsuldarlığı Bayanşirədə 6,0 kq olduğu halda, Mədrəsədə 4,5 kq təşkil etmişdir; 3x1,5 m əkin sxemi tətbiq edildikdə, hektardan məhsuldarlıq Bayanşirədə 133,3, Mədrəsədə 99,3 olmuşdur. Aldığımız nəticələrdən aydın olur ki, tədqiq edilən texniki istiqamətli yerli sortların əsas məhsuldarlıq göstəriciləri yüksək səviyyədə inkişaf edərək formalaşır. Tədqiqat işi çərçivəsində öyrəndiyimiz sortlar XX əsrin 80-ci illərində əkinlərin 35%-ni təşkil edən Rkasiteli sortundan sonra, ən geniş sahədə becərilənlər idi: Mədrəsə texniki sort əkinlərinin ümumi sahəsinin 16%-dən, Bayanşirə isə 11%-dən çoxunu əhatə edirdi. O da nəzərə alınmalıdır ki, dünya elmində möhkəm yer alan fikrə əsasən, baş verən iqlim dəyişmələri səbəbindən yaxın onilliklərdə dəniz səviyyəsindən nisbətən daha yüksəkdə yerləşən ərazilərdə, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dağlıq hissələrində üzümçülüyün inkişafının böyük perspektivləri vardır.